# *AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASI*
# *МЕТОДИКА ПРЕПОДАВАНИЯ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА*
# *METHODS OF TEACHING THE AZERBAIJAN LANGUAGE*

**UOT 372.881.11**

***Rahilə Mirzəli qızı Məmmədova***
*filologiya üzrə fəlsəfə doktoru,*
*Mingəçevir Dövlət Universitetinin baş müəllimi*

## DİALOQUN STRUKTUR TƏBİƏTİ

***Рахила Мирзали гызы Мамедова***
*доктор философии по педагогике, старший преподаватель*
*Мингячевирского Государственного Университета*

## СТРУКТУРНАЯ СУЩНОСТЬ ДИАЛОГА

***Rahila Mirzali Mammadova***
doctor of philosophy in pedagogy,
*senior lecturer at*
*Mingachevir State University*

## STRUCTURAL ESSENCE OF DIALOGUE

**Xülasə.** Dilçiliyin yaranması və inkişafı həmişə digər elm sahələri ilə əlaqəli olmuşdur. Dilçiliyin əlaqədə olduğu elmlərdən biri də psixologiyadır. Belə ki, dil insan təfəkkürünün məhsulu olduğundan psixologiya ilə də üzvü şəkildə bağlıdır. Nitq dildə sistem kimi, psixologiyada qabiliyyət kimi öyrənilir. Bu münasibətlər fonunda nitqin növləri ‒ dialoji və monoloji nitq tədqiq edilir. Dialoqlar insan həyatında çox mühüm məsələləri həll edir. Cəmiyyət dialoqsuz keçinə bilmir. Ən mühüm problemlər dialoqlar vasitəsi ilə çözülür, həll edilir.
***Açar sözlər:*** *dialoq, nitq, dil, psixoloji, linqvistik, monoloq*

**Резюме.** Возникновение и развитие языкознания всегда было связано с другими областями науки. Одной из связных с языкознанием наук является психология. Таким образом, поскольку язык является продуктом человеческого мышления, он также органически связан с психологией. Речь изучается в языке как система, в психологии как способность. На фоне этих отношений изучаются виды речи – диалогическая и монологическая речь. Диалоги решают очень важные задачи в жизни человека. Общество не может обойтись без диалога. Самые важные проблемы решаются посредством диалогов.
***Ключевые слова:*** *диалог, речь, язык, психологический, лингвистический, монолог*

**Summary.** The emergence and development of linguistics has always been associated with other areas of science. One of the sciences connected with linguistics is psychology. Thus, since language is a product of human thought, it is also organically linked to psychology. Speech is studied in language as a system, in psychology as an ability. Against the background of these relations, the types of speech are studied - dialogical and monologue speech. Dialogues solve very important tasks in human life. Society cannot do without dialogue. The most important problems are solved through dialogues.
***Keywords:*** *dialogue, speech, language, psychological, linguistic, monologue*

Azərbaycan dilinin nitq problemləri ən aktual və gündəlik qayğıya ehtiyacı olan sahələrdəndir. Nitq problemləri çoxaspektli olub xalqın ümumi mədəniyyətindən ayrılmazdır, onun tərkib hissəsi, təfəkkürünün ifadəsidir.

Tətbiqi sahə olan nitq problemləri hər hansı konkret bir dilin orfoepik, orfoqrafik, leksik, qrammatik və üslubi normalarını müəyyən edən nəzəri ümumiləşdirmələr və praktik tədbirlər sistemidir.

Dilçiliyin yaranması və inkişafı həmişə digər elm sahələri ilə əlaqəli olmuşdur. Dilçiliyin əlaqədə olduğu elmlərdən biri də psixologiyadır. Belə ki, dil insan təfəkkürünün məhsulu olduğundan psixologiya ilə də üzvü şəkildə bağlıdır.

Dil cəmiyyətdə üç mühüm funksiyanı yerinə yetirir: 1) ictimai-siyasi təcrübəni yaratmaq, ötürmək və mənimsəmək vasitəsi rolunu oynayır; 2) kommunikasiya rolunda çıxış edir; 3) intellektual fəaliyyət vasitəsi olur. Dilin həmin funksiyaları nitq prosesinin də istiqamətini müəyyənləşdirir [6, s. 47].

Dialoji və monoloji nitq sonuncu funksiyaya söykənərək öyrənilir.

Məlumdur ki, psixolinqvistika iki elmin – psixologiya və linqvistika elminin qovuşuğunda meydana çıxmışdır. Bu qovuşuq elm psixoloji məfhumlar, anlayışlar sistemini dil araşdırmaları ilə bağlı dilçilik elminin əldə etmiş olduğu çox mühüm praktika ilə birləşdirir və dil vahidlərinin nitq fəaliyyətinin həyata keçməsi mexanizmi və formaları ilə əlaqəsini, münasibətlərini açmağa səy göstərir.

Nitqin həm psixoloji, həm də linqvistik tərəfləri mövcuddur. Bu baxımdan nitqin psixologiyası, nitqin linqvistikası bir obyektdə birləşə bilir və hər ikisi nitqin şərait və situasiyalarını aydınlaşdırır. Dilçi nitqin dildə ifadə vasitələri sistemini üzə çıxarır. Psixoloq isə nitqin törəmə, formalaşma prosesini araşdırır, nəticələr çıxarır. Göründüyü kimi, bu konkret obyektə (nitqə) dilçi və psixoloqun yanaşma tərzi müxtəlifdir. Məntiq və psixologiya elmi nitqin təşkilini öyrənir, dilçi isə nitqin təşkili mexanizminin sadə mərhələlərini, səviyyələrini tədqiq edir. "Dilçi təfəkkür-nitq aktlarında hər hansı şəraitdə hər hansı birinin hər hansı nitq təşkilində ümumi olanını seçir, ayırır, nitq axınının daxili quruluşunu xarakterizə edən dil vasitələrini axtarıb tapır. Buna görə də dilçilik elminin daxili quruluşunu məhz dilin sistemi təşkil edir" [6].

Psixoloji cəhətdən nitqin mexanizmi və prosesin qarşılaşdırılması ön sıraya çəkilir. Psixologiyada nitq proses kimi öyrənilir. Dilçilikdə nitq dil sistemi (predmet) kimi tədqiq olunur. Dilçilikdə nitqin mexanizmi, psixologiyada nitqin inkişaf prosesi öyrənilir. Psixologiya nitq mexanizmini təhlil süzgəcindən keçirərkən ünsiyyət prosesi üçün relevant olan xüsusiyyətləri və nitqin formalaşmasında əks olunmayan, yalnız kommunikasiyanı müşayiət edən səciyyəvi cəhətləri fərqləndirir.

Nitq dildə sistem kimi, psixologiyada qabiliyyət kimi öyrənilir. Bu münasibətlər fonunda nitqin növləri – dialoji və monoloji nitq tədqiq edilir.

Nitq qabiliyyətindən danışan müəlliflərin fikrincə, bu qabiliyyət xüsusi quruluşa malikdir və nitq qabiliyyətinin dil modelindən fərqlənən xüsusi modelini qurmağın zəruri olması nəticəsinə gəlsək, onda belə bir sual meydana çıxır: bu modelin dil modelinə münasibətini hansı elm öyrənməlidir? Məlum olduğu kimi, bu modellərin "qovuşuğu" nə ənənəvi dilçiliyin, nə də ənənəvi psixologiyanın predmetinə daxildir. Həm dilçilikdən, həm də psixologiyadan fərqlənən, eyni zamanda onlardan nə isə götürən psixolinqvistika elminin yaradılması zərurəti də məhz bu faktordan irəli gəlir. Beləliklə, psixolinqvistikanın "iki üzü" vardır: o, dildə dil qabiliyyəti xüsusiyyətləri ilə şərtlənənləri psixikada, nitq kommunikasiyası prosesi baxımından relevant olanları isə dil qabiliyyətində görür. Psixolinqvistika predmeti dil sistemi (dil predmet kimi) və dil qabiliyyəti arasındakı münasibət olan elmdir [3, s. 315].

İnsanın nitq fəaliyyətini də dilçilik və psixologiya öyrənir. Burada 3 cəhət ortaya qoyulur: motivli nitq, məqsədli nitq və israrlı nitq. Beləliklə, nitq fəaliyyəti psixolinqvistikanın obyektinə çevrilir. Nitq fəaliyyətində qlobal obyekt kimi dilçilik bir cəhətini, psixologiya başqa cəhətini modelləşdirir. Sadə şəkildə desək, dilçilik elmi nitq fəaliyyəti üçün spesifik olanla maraqlanır, psixologiya isə nitq fəaliyyətində hər hansı bir fəaliyyət üçün ümumi olanları öyrənir. Psixolinqvistika nitq fəaliyyətini kompleks öyrənmək üçün lazım olan anlayışlar, məfhumlar sisteminə malikdir. Belə bir tam nəticəyə də gəlmək olar ki, bütövlükdə nitq fəaliyyəti və onun kompleks modelləşdirilməsi qanunauyğunluqları psixolinqvistikanın predmetini təşkil edir.

"Dilçilik və psixologiya sahəsində aparılan nəzəri araşdırmalarda təfəkkür və nitq probleminin mərkəzində fikirlə söz arasındakı əlaqə və münasibət dayanır. Uzun müddət həm psixo-

logiyada, həm də linqvistikada onların kəsişdiyi nöqtədə məskunlaşan müxtəlif hadisələrin atomistik və funksional təhlili nəticəsində üzvi şəkildə bağlı olan anlayışlar bir-birindən ayırmış şəkildə öyrənilmiş və buna görə də bütöv strukturun, yaxud da bu strukturu təşkil edən komponentlərin birliyi, bütövlüyü, obyektdəki real mahiyyəti diqqətdən kənarda qalmışdır.

Elmin tarixində təfəkkür və nitqlə bağlı söylənmiş mülahizələr iki qütb arasında cəmləşib: nitq və təfəkkür (söz və fikir) tamamilə eyniləşdirilib, yaxud bunlar bir-birindən mütləq şəkildə ayrılıb, müxtəlif hadisələr kimi təhlilə cəlb olunub. Psixolinqvistikada fikir=nitq+səs formulu müasir psixologiya elmində indi də bir çox alimlər tərəfindən (məs.: Amerika psixolinqvistləri) qəbul edilir. Buradaca qeyd edək ki, müəyyən bütövü tərkib hissələrinə parçalayıb, hadisələrin ayrı-ayrılıqda təhlili və hər bir hissənin mahiyyətini, əlamətlərini, xassələrini müəyyənləşdirmək, sonra nəticələri bütövə şamil etmək həmişə özünü doğrultmur. Çünki bütövü təşkil edən hissələrin ayrı-ayrılıqda malik olduğu xassə, bütövün daxilində keyfiyyətcə dəyişir, yeniləşir, kəmiyyətcə birləşmə yeni keyfiyyət, yeni əlamət qazanır" [3, s. 112].

İndi psixoloji postulatlar dilə tətbiq olunur və yaxud əksinə. Qovuşan postulatlar psixolinqvistika deyilən elmin formalaşmasında mühüm rol oynayır. Psixolinqvistikanın müştərək mövzuları ortaya çıxır və öz təhlilini gözləyir. Həmin mövzulardan biri dialoji və monoloji nitq problemidir.

"Dialoq" termini yunan dilindəki "*dialogos*" sözündən olub replikaların bir-biri ilə əvəzlənməsi ardıcıllığı (geniş mənada replikalar – cavabın hərəkətlərlə, jestlərlə və s. ifadəsi) anlamındadır. Bu termin haqqında xarici sözlərə dair lüğətlərdə iki fikirlə qarşılaşmaq olur: 1) dialoq – iki və ya bir neçə şəxs arasında olan söhbət, dram əsərlərində nitqin təşkilinin əsas forması; 2) ədəbi əsər, danışıq forması (4, s. 120). O.S. Axmanovanın lüğətində dialoqun təbiəti belə açılır: "Dialoq – nitqin bir formasıdır, orada hər bir söyləm həmsöhbətə doğru istiqamətlənir. Dialoq nisbi qısalığı, lakonikliyi ilə səciyyələnir və sintaktik quruluşu təmin edir" [5, s. 132].

Dialoq: 1) iki və ya daha çox şəxsin arasında olan söhbət və dramatik əsərlərin əsas nitq formasının təşkilidir; 2) söhbət şəklində yazılmış ədəbi əsərdir.

Dialoq – iki və ya daha çox həmsöhbət arasında elə bir interaksiya formasıdır ki, bu zaman həmsöhbətlər öz replikaları ilə qarşı tərəfin replikalarına cavab verirlər və ya əksinə, qarşı tərəflər reaksiya (hətta bunu birbaşa istəmədiyi bir halda) bildirməyə cəhd edirlər. Bu nitqin növündə hər bir ifadə birbaşa müraciət edilənə yönəldilir. Digər tərəfdən, dialoq öz sintaktik quruluşuna görə ayrı-ayrı ifadələrinin məhdud nisbi müxtəsərliyi və sadəliyi ilə fərqlənir.

Dialoq formaları tarixən antik dövrün alimlərinin (Ksenofont, Platon, Qaliley, Didro və b.) maraq dairəsində olmuş, bu haqda müəyyən fikirlər söylənmişdir. Dialoq anlayışı və onun formaları psixoloji tədqiqatlarda psixi proseslərin sosial mexanizmi kimi öyrənilmişdir. Belə tədqiqatların tarixi XX əsrdən başlanır. L.S. Vıqotskinin mədəni-tarixi nəzəriyyəsində interaksionizm, psixoanaliz J. Piajenin genetik psixologiya nəzəriyyəsində [1; 2, s. 7], M.M. Baxtinin işlərində və s. araşdırmalarda dialoji nitqin psixoloji aspektləri nəzərdən keçirilmişdir. Amma bu tədqiqatlarda dialoqun yalnız psixoloji tərəflərinə toxunulduğu üçün linqvistik aspektləri, demək olar ki, unudulmuşdur.

Dialoqun formaları aşağıdakılardır: mübahisə, diskussiya, polemika, teledebat, intervü, disput.

Əsərdə dialoji nitqə aid olan replikaların kommunikativ tipləri təhlil edilir və replika cütlüklərinin (replika qruplarının) semantik və struktur xüsusiyyətləri araşdırılır.

Replikaların öyrənilməsi zamanı biz onların məqsəddən asılı olaraq kommunikativ yönəltməsinin dəyişməsinə nəzər yetirmişik. Replikaları replika-stimul və replika-reaksiya kimi növlərə ayırmaq olar. Hər iki növ müəyyən semantik yük daşıyır və informasiya ötürülməsi məqsədinə xidmət edir.

Replika-stimul, əsasən, həmsöhbətləri fikirlərini ifadə etməyə həvəsləndirir (dəvət edir). Replikaların ikinci qrupu əvvəlki replikalara reaksiyadır. Replikalar vasitəsi ilə ötürülən informasiya müxtəlif kommunikativ məqsədlərə xidmət edir. Replikada obyektin, hadisənin olub-olmaması haqqında, hadisənin varlığı və mahiyyəti haqqında, vaxtı haqqında və ya natiqin vəziyyətə ümumi münasibəti haqqında məlumat verilə bilər.

Bundan əlavə, replikalar həmsöhbəti söhbətə qatmaq üçün ona təsir edə bilər, onu reaksiya bildirməyə və ya müzakirəni davam etməyə, kommunikativ istiqamətə yönəltməyə təsir göstərə bilər.

Replika-stimulların xüsusiyyətləri ondan ibarətdir ki, onlarda əmr formasında feillər, müraciətlər və nidalardan tez-tez istifadə olunur. Onların kommunikativ istiqamətləndirilməsi – söhbəti stimullaşdırmaq, söhbətə dəvət etməkdir.

Dialoji nitqin replikası birinci replikaya reaksiya ola bilər. Bu cür kommunikativ istiqamətləndirmə reaksiya məzmunlu replikalara məxsusdur. Replika-reaksiya ilk ifadəni, təklif olunan ifadənin mövzusunu aydınlaşdırır, təkzib edir, ya da tamamlayır. Replika-reaksiya əvvəlki kontekstdən asılıdır.

İkinci replikaların struktur və qrammatik asılılığı müasir dilçilikdə təkrar replika adlanır. Bu cür təkrarlarsız monoloji və dialoji nitq mümkün deyil. Təkrar – danışıq dilinin konstruktiv elementidir. Hətta cümlənin hissələrə bölünməsi də konstruktiv təkrarları ehtiva edir. İlk replikalar müxtəlif emosional reaksiyaları ifadə edə bilər.

Biz müasir Azərbaycan dilinin dialoji nitqində təkrarın on bir leksik-struktur növünü fərqləndirmişik. Bu əsasdan çıxış edərək, məsələnin kommunikativ funksiyasını müəyyən etmək daha asanlaşır. Kommunikativ istiqamətləndirməni və cavabların xarakterini nəzərə alaraq aşağıdakı müvafiq sual-cavab replikalarının ayrılması mümkündür:

1) cavabı nəzərdə tutan neytral sual;

2) cavabın xarakterini ehtiva edən təxmini sual;

3) sual verənin öz sualına cavab almadığı zaman verdiyi təkrar sual.

Psixologiyada dialoqun uşaq və yaşlı adamların nitqi əsasında öyrənilməsinə bəzi əsərlərdə diqqət yetirilmişdir. Dialoji nitqin struktur-genetik xarakteri yuxarıda adlarını çəkdiyimiz alimlərin əsərlərinin də tədqiqat obyekti olmuşdur.

Dialoqlar insan həyatında çox mühüm məsələləri həll edir. Cəmiyyət dialoqsuz keçinə bilmir. Ən mühüm problemlər dialoqlar vasitəsi ilə çözülür, həll edilir.

Hər bir dialoqun xarakterik replikaları olur. Dialoqun hər bir replikası öz fərdiliyi ilə fərqlənir, sosial xarakter daşıyır. Partnyorlar, müsahiblər bir-birini dialoqlar vasitəsi ilə dərk edir, anlaşma bu yolla yaranır [1, 105].

Dialoq problemi dilçilikdə və psixologiyada müxtəlif istiqamətlərdə öyrənilmişdir. Birinci, dialoq məsələlərinə dramaturgiya janrının tələblərindən yanaşılmış, dilin daxili, qapalı vasitəsi kimi baxılmışdır. Bu xüsusda yazıçının, dramaturqun bədii-üslubi xüsusiyyətlərinə diqqət yetirilmişdir. Burada dramaturqun dialoq yaratma ustalığı üzə çıxarılmışdır. Bu bacarığın meydana çıxarılması dialoqun üslubi planda tədqiqidir. Eyni zamanda, bu əsasda dialoqun dildə kommunikativ funksiyası da aydınlaşa bilir [6].

Digər qrup tədqiqatçılar dialoqu linqvistik hadisə kimi, yəni formal-sintaktik və semantik aspektlərdə araşdırmışlar [4, s. 62]

Dialoqun funksional aspektdə və cümlənin aktual üzvlənmə aspektində tədqiqi, az da olsa, öyrənilmişdir. Burada aktual üzvlənmədə replikanın, replika hissələrinin stimullaşması, dialoqun "funksional" tərəfi, danışanların kommunikativ meyarları (ölçüləri) əsas yer tutur. Dialoqun formal tərəfi təhlil olunarkən başlıca olaraq forma və funksiyanın təsadüfən bir vaxta düşməməsi, bir vaxta təsadüf etməməsi, yəni uyğun gəlməməsi nəzərə alınmışdır [5, s. 4].

Dialoq nitqi adətən monoloq nitqinə qarşı qoyulur, öz təbiiliyinə görə monoloq nitqi dialoq nitqindən fərqlənir. Monoloq, əsas etibarilə, əhəmiyyətli dərəcədə dilin təbii formasıdır. Dialoq isə dilin sonradan qazanılan formasıdır, ünsiyyətin meydana gəlməsi ilə, iki və ya üç şəxsin söhbətləşməsi ilə bağlı yaranmışdır. Elə buna görə də monoloq nitqi təbiəti etibarilə dialoq nitqindən seçilir.

Dialoq nitqin situasiyaları ilə bağlı meydana çıxır [5, s. 6].

Dialoq təfəkkürlə bağlı bir psixoloji-linqvistik anlayışdır. Dialoq təfəkkürdə formalaşır, burada iki və ya bir neçə təfəkkür, düşüncə üzüzə, qarşı-qarıya gəlir. Gərgin və yaxud sakit situasiyada təfəkkür işə düşür [2, s. 25].

Dialoq sosial fenomendir, kompleks sistemdir. Dialoqa müxtəlif elmlər diqqət yetirir: fəlsəfə, qneseologiya, kulturologiya, məntiq, psixologiya, sosiologiya, pedaqogika, linqvistika və s.

Dialoqun paradiqmaları cəmiyyətin fəaliyyət sferaları ilə əlaqədar müəyyənləşir.

Dialoq haqqında konsepsiyalar, baxışlar müxtəlifdir: 1) individual baxışlar; 2) kollektiv baxışlar.

S.F. Zanko dialoq nitqinin iki istiqamətdə öyrənilməsinin zəruriliyini belə əsaslandırır ki, danışan və dinləyən (və əksinə) öz rollarını dəyişəndə nitqin interpsixoloji aspekti meydana çıxır ki, bunun sayəsində dialoq replikaları arasında həm fikrən, həm də linqvistik cəhətdən sıx əlaqə yaradılmış olur [7].

F.M. Ağayevanın fikrincə, dialoq problemi psixoloji və psixolinqvistik aspektdə də öyrənilə bilər. Bu sahədə L.P. Yakubinskidən sonra, əsasən, psixoloqlar məşğul olmuşlar. Məlumdur ki, dialoqda intonasiya, tembr, mimika və s. kimi faktorların çox mühüm rolu vardır və bunlar bəzən deyilən sözlərdən, cümlələrdən daha artıq əhəmiyyət kəsb edir. Odur ki, psixoloji faktlar linqvistik hadisələri kölgədə qoyur, yəni intonasiya, mimika və s. sözün, ifadənin mənasına üstün gəlir, onu tamamilə dəyişdirmiş olur. Bütün bunlar dialoq nitqinin psixolinqvistik istiqamətdə tədqiqini zəruriləşdirir [1, s. 14-15].

Dialoqu birtərəfli, yəni yalnız struktur-sintaktik cəhətdən tədqiq etmək kifayət və doğru deyildir. Çünki dialoq nitqi ümumi dilçilik planında öyrənilməli olan çoxcəhətli bir hadisədir [6, 3]. Odur ki, dialoqun yalnız formal-struktur istiqamətdə təsvirini verən əsərlər hazırkı inkişaf səviyyəsi baxımından dilçiliyi təmin edə bilməz. Dialoq sadəcə informasiya və kommunikasiya vasitəsi olmayıb, həm də mürəkkəb və çoxşaxəli hadisədir. Dilçilər dialoqun struktur-sintaktik xüsusiyyətlərinə daha çox diqqət yetirdikləri üçün dialoq nitqində istifadə olunan dil və nitq vahidlərinin yaranması və işlənilməsi mexanizmi tam şəkildə açıla bilmir. F.M. Ağayeva haqlı olaraq bu cəhətləri nəzərə alaraq dialoqun ikiplanlı (dil və nitq planı) linqvistik və psixoloji bir hadisə olduğunu, forma və funksiya ilə dialektik birlik təşkil etdiyi üçün bu hadisənin müxtəlif əlamətlərinin kompleks şəkildə öyrənilməsinin zəruriliyini də nəzərə çatdırır [7, s. 2].

L.P. Yakubinski dialoqun xarakterik cəhətlərini "növbələşən, tez-tez əvəz edilən, bir-birinə qarşılıqlı təsir göstərən, bir-birindən asılı olan formalar birliyi" sayır [3].

**Problemin aktuallığı.** Biz müasir Azərbaycan dilinin dialoji nitqində təkrarın on bir leksik-struktur növünü fərqləndirmişik. Bu əsasdan çıxış edərək, məsələnin kommunikativ funksiyasını müəyyən etmək daha asanlaşır.

**Problemin elmi yeniliyi.** Dialoq problemi dilçilikdə və psixologiyada müxtəlif istiqamətlərdə öyrənilmişdir. Birinci, dialoq məsələlərinə dramaturgiya janrının tələblərindən yanaşılmış, dilin daxili, qapalı vasitəsi kimi baxılmışdır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Dialoqun funksional aspektdə və cümlənin aktual üzvlənmə aspektində tədqiqi, az da olsa, öyrənilmişdir. Burada aktual üzvlənmədə replikanın, replika hissələrinin stimullaşması, dialoqun "funksional" tərəfi, danışanların kommunikativ meyarları əsas yer tutur.

**Ədəbiyyat:**


1. Abdullayev, N.Ə., Məmmədov Z.T. Nitq mədəniyyətinin əsasları. –Bakı: ADPU-nun nəşri, – 2008, – 336s.
2. Abdullayev, N., Tahirov Q. Düzgün yazı təliminin bəzi məsələləri. –Bakı: ADPU-nun nəşri, –2003, – 124s.
3. Abdullayev, Ə.Z., Mətni anlama modelləri. – Bakı: Səda, – 1999, – 344 s.
4. Abdullayev, Ə.Z., Seyidov Y.M., Həsənov A.Q. Müasir Azərbaycan dili. Sintaksis, IV hissə. Bakı: – Maarif, – 1985, – 475 s.
6. Ağayeva, F.M. Şifahi nitqin sintaksisi (Dialoq nitqi). – Bakı: Maarif, – 1975, – 118.
7. Axundov, A.A. Ümumi dilçilik. – Bakı: Maarif, – 1988, – 368 s.
8. Azərbaycan dilinin izahlı lüğəti: 4 cilddə, 2 c. – Bakı: Elm, – 1980, – 576 s.


**E-mail:** rahile.mamedova.1959@mail.ru
**Rəyçilər:** *filol.ü.elm.dok.* **F.K. Namazova**
*filol.ü.fəls.dok.* **G.K. Yunisova**
**Redaksiyaya daxil olub:**12.04.2022.